# "MAİLİN ÜNVANI VƏTƏNDİR"

## *(Şair-tədqiqatçı Mail Əliyevin 90 illiyinə)*



*Arif Ramazanov və Hacı Mail Əliyev*

14.000-ə yaxın yazılı abidəni qoruyan Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda İspaniya və Mərakeşdən tutmuş Hindistanadək bütün Yaxın və Orta Şərq, Şimali Afrika ölkələri və xalqlarının tarix və mədəniyyətlərinə dair əlyazmalara rast gəlmək olar. Bu cəhətinə görə xəzinədən istifadə edən tədqiqatçıların coğrafiyası çox genişdir.



*Arif Ramazanov Aydın Xəlilov, Şeyxülislam Allahşükür Paşazadə, Mərəşi Nəcəfi kitabxanasının müdiri Seyid Mahmud Mərəşi, Hacı Fayiz və İran Səfirliyinin əməkdaşları ilə birlikdə*

UNESCO-nun Dünyanın Yaddaşı siyahısına 5 əlyazmamız daxil edilmiş, Məhəmməd Füzuli "Divan"ının şairin ölümündən 16 il sonra üzü köçürülmüş nüsxəsi də bu siyahıdadır.

Bu il anadan olmasının 90 ili tamam olan, şair-qəzəlxan Hacı Maili 43 yaşında bu müqəddəs məkana gətirən də həmin "Divan"ın bu nüsxəsi oldu. 1978-1999-cu illərdə (vəfatına qədər) 21 il Əlyazmalar İnstitutunun əməkdaşı olmuş, Şərq şeirinin mahir bilicisi Hacı Mail Əliyev ilk vaxtlardan bu "Divan" üzərində tədqiqat aparmış, onun tənqidi mətnini hazırlayaraq, 1996-ci ildə nəşr etdirmişdir. Hacı Mail eyni zamanda şairin digər əsərlərinin, "Hədiqətüs-süəda"nın və "Leyli və Məcnun"un tənqidi mətnini (A.Babayeva ilə birlikdə) nəşr etdirmişdir. Ərəb və fars dillərini mükəmməl bilən Füzulişünas, Əlyazmalar İnstitutu Elmi Şurasının üzvü, dəyərli islamşünas alim, professor Vasim Məmmədəliyevin dediyi kimi Hacı Mailin İslam dininə, klassik Şərq şeirinin incəliklərinə dərindən bələd olması "Orta əsr şairlərimizin, xüsusən, dahi Füzulinin çətin anlaşılan, qəliz mənalı, müəmma xarakterli beytlərini açmağa imkan yaradırdı."

Bu klassik qəzəl ustadının Füzulinin 500 illiyi münasibətilə 1994-cü ildə yaratdığı "Füzuli Ədəbi məclisinə" İran və Türkiyədən olan tədqiqatçılar da dəvət olunurdu. Onlar Mail Əliyev yaradıcılığından bəhrələnirdilər.

Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyası müdafiə etmədən Məhəmməd Füzuli yaradıcılığının mahir tədqiqatçısına, Hacı Mailə filologiya elmləri namizədi elmi dərəcəsi diplomunu təqdim etmişdir. Qeyd etmək lazımdır ki, vaxtilə görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov da AAK tərəfindən, müdafiə etmədən, filologiya elmləri doktoru alimlik elmi dərəcəsinə layiq görülmüşdür.

Hacı Mail mətnşünas kimi Azərbaycanın



*Arif Ramazanov, Hacı Mail Əliyev, İstanbul Universitetinin professorları və Əkrəm Bağırov*

klassik şairlərindən Kişvəri, Cahanşah Həqiqi, Hacı Şıxəli Tuti və digərlərinin əsərlərinin nəşrində iştirak etmiş, onların redaktoru olmuşdur. Əlyazmalar şair-qəzəlxanı tərcümə işi ilə də məşğul olmağa sövq etmişdir.

Onun tərcümələri o vaxt İnstitutun direktoru Məmmədağa Sultanovun diqqətini cəlb etmiş, tərəfindən bəyənilmiş, Azərbaycan və Şərq klassiklərinin qəzəllərindən nümunələr çap olunmuşdur. Qeyd etmək lazımdır ki, böyük şərqşünas alim, o zaman Əlyazmalar İnstitutu "Fars əlyazmaları" şöbəsinin müdiri mərhum Rüstəm Əliyev Hacı Mailə "Qurani-Kərim"i tərcümə etməyi də məsləhət və layiq görmüşdür. Əlyazmalar İnstitutunun əməkdaşı, məşhur fotoqraf, mərhum Fəxrəddin Əli çox sevilən şair-qəzəlxanın yaradıcılığından ilhamlanaraq miniatürlər silsiləsi yaratmış, özündən sonra yadigar qoymuşdur. İnstitutun digər bir əməkdaşı şair-tədqiqatçı Sona Xəyal hələ Hacının sağlığında İnstitutda hamının oxuduğu "Mailin ünvanı vətəndir" adlı kitabını yazmışdır. Göründüyü kimi kitabın adı şairin bir beytinin bir misrasından alınmışdır.

Şair-qəzəlxan haqqında bu iki beyt ona verilən yüksək dəyəri səsləndirir:

Az şairimiz çox qəzələ qail olubdur,
Amma bu işə nail olan Mail olubdur!
(*Şahin Fazil*)

Və yaxud
Mail, səninlə fəxr eləsə xəlq, haqqı var,
Füzuli şerini xəlqə çatdıran sənsən!

Hacı Mailin 70 illik yubileyi 2005-ci ildə Heydər Əliyev sarayında onsuz keçirildi. Həzrəti-Peyğəmbərin hər il mövlud gününü qeyd edən şair 1999-cu ildə 64 yaşında, həyatdan köçmüşdür.

Lakin Əlyazmalar İnstitutunun əməkdaşları dilindən hədislər düşməyən Hacı Maili bir gün də olsun, unutmurlar. Çünki filologiya elmləri namizədi, Prezident təqaüdçüsü, Nəsib Göyüşovun rəhbərlik etdiyi "Farsdilli Əlyazmaların tədqiqi" şöbəsinin qabaqcıl elmi işçilərindən biri, Hacı Mailin oğlu Hacı Mustafa Əliyevi hər gün görürük, ailəsinin layiqli üzvü, İnstitutun Həmkarlar Təşkilatının sədri Samirə Əliyevadır. Belə bir deyim var: Unutsaq unudarlar!

Ruhu şad olsun!

**QEYD:** ***Yazıda verilmiş şəkillərin hər birində mərhum Hacı Mailin yanında vüqarla, dayanmış gülərüzü Arif Ramazanovdur. Tanınmış mətnşünas, tərcüməçi əməkdaşımızı da bu günlərdə itirdik. Allah rəhmət eləsin. Ruhları şad olsun!***



*Tahirə HƏSƏNZADƏ,*
*t.e.d., dosent*